## *ABBASQULU BƏY ŞADLİNSKİNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ*

***Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 24 fevral 1886-cı ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur. İki sinifli rus-tatar məktəbini bitirmişdir və bir müddət mirab işləmişdir.***

| | |
|---|---|
| ***1902-ci ildə*** | *Atadanqalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur.* |
| ***1905–1911-ci illər*** | *Çar dövründə Peterburqda mühəndislik sahəsi üzrə təhsil alır. Rusiya və İranda baş verən inqilablar onun ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir.* |
| ***1907- ci il*** | *Fevral inqilabından sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir.* |
| ***1918-ci ilin əvvəlində*** | *Daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soy-qırımlarının baş alıb getdiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi – gələcək "Qırmızı tabor"u təşkil etmişdi.*<br><br>*Abbasqulu bəy Şadlinski Azərbaycan hərb tarixində nizami ordu ilə partizan müharibəsini sintez edən nadir komandirlərdən hesab olunur. Onun qurduğu "Qırmızı Tabor" əslində bir ordu modeli idi. O, Vedidə elə bir müdafiə sistemi qurmuşdu ki, daşnak generalı Dro belə onun taktikasını etiraf etməyə məcbur olmuşdu.* |
| ***1918–1919-cu illərin*** | *Yay aylarında daşnak hərbi hissələrinin Vediyə hücumlarının qarşısının alınmasında böyük şücaət göstərən gələcək "Qırmızı tabor"çular Şadlinskinin əmri ilə nizami daşnak ordusunun üstün qüvvələri qarşısında kəndi döyüşlə tərk etmiş, Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək, əvvəlcə Xoy şəhəri yaxınlığında, sonra isə Mərənd şəhəri ətrafında mövqe tutmuşdular.* |
| ***1920*** | *Nəriman Nərimanovun tapşırığı ilə "Qırmızı Tabor" (rusca: Красная рота) adlı hərbi hissəni təşkil etmişdir.* |
| ***1918–1921-ci illərdə*** | *Daşnaklara qarşı Könüllü xalq birləşməsi hissələrinin və "Qırmızı tabor"un komandiri olmuşdur.*<br><br>*Bu taborun tərkibində əsasən yerli türk-müsəlman əhalisi idi.* |
| ***1920-ci il, 28 iyulda*** | *Naxçıvanda sovet hakimiyyəti elan olundu.* |
| ***1920-ci il, 17 sentyabr*** | *Abbasqulu bəy Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək, 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gəlmişdi və buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdi.* |

| | |
|---|---|
| | *Şadlinski ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmişdir.* |
| | *Onlar Naxçıvanın erməni daşnaklarından təmizlənməsində və bölgədə asayişin bərpasında mühüm rol oynadılar.* |
| | *Onlar cəllad Dronun daşnak qüvvələrini darmadağın edərək, Naxçıvanda Sovet Hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşdur.* |
| ***1921-ci ilin*** | *Fevralından aprelin əvvəllərinə kimi İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdi. Daşnaklarla döyüşlərdə göstərdiyi şücaətə görə, Şadlinski Nəriman Nərimanov tərəfindən Azərbaycan SSR-nin "Qırmız bayraq" ordeni ilə təltif olunmuşdur.* |
| ***1921-ci ilin*** | *Yayınada Şadlinskinin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində qəhrəmanlıq göstərmişdilər.* |
| | *Şadlinski ilin sonunadək Naxçıvanda qalmış və buranın sərhəd-lərinin qorunmasına rəhbərlik etmişdir.* |
| ***1922-ci il*** | *Vediyə qayıdan Şadlinski Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, sonra isə burada yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri təyin olunmuşdur.* |
| ***1922–1928-ci illərdə*** | *Abbasqulu bəy Şadlinskinin İsgəndər, Mafərə, İsfəndiyar, Məmməd və Tacirə adlı övladları olmuşdur* |
| ***1930-cu il, 26 fevral*** | *Kolanı kəndi yaxınlığında Cığın dərəsində Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yeri olan Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski çoxsaylı qəhrəman soydaşlarımız kimi hay-erməni fitnəkarlığının qurbanı olaraq əbədi şəhidlik zirvəsinə ucalmışdır.* |
| | *Baxmayaraq ki, sovet dövründə o "inqilabçı" kimi təqdim olunurdu, xalqın yaddaşında o, hər şeydən əvvəl bir milli qəhrəman və doğma torpaqlarının müdafiəçisi kimi qalmışdır.* |
| ***1971-ci ildə*** | *Yazıçı Fərman Kərimzadənin Abbasqulu bəy Şadlinskinin həyat və fəaliyyətindən bəhs edən "Qarlı aşırım" romanı "Gənclik" nəşriyyatı tərəfindən çap olunmuşdur. .* |
| | *Rejissor Kamil Rüstəmbəyov Fərman Kərimzadənin "Qarlı aşırım" romanı əsasında "Axırıncı aışrım" filmini çəkmişdir.* |
| ***1986-cı ildə*** | *Onun irsinin öyrənilməsi, gənc nəslin hərbi vətənpərvərlik ruhunun daim yüksək tutulması üçün 1986-cı ilin oktyabr ayında İliç (indiki Şərur) rayonunda "Qırmızı Tabor" beynəlmiləl partizan dəstəsinin Şöhrət muzeyi yaradıldı.* |

| | |
|---|---|
| | *“Şöhrət muzeyi” Abbasqulu bəy şəxsiyyəti haqqında zəngin bir tarixi mənbə və hətta tarixşünaslıq məktəbi idi. Təəssüf ki, müstəqilliyimizi bərpa etdikdən sonra muzey sovetin qalığı hesab edilərək bağlanmış, eksponatları isə yox edilmişdir.* |
| ***1996-cı ildə*** | *Filologiya elmləri namizədi, siyasi xadim Əziz Ələkbərlinin “Abbasqulu bəy Şadlinski” adlı kitabı “Sabah” nəşriyyatı tərəfindən çap olunmuşdur.* |
| ***2006-cı ildə*** | *Şair, publisist Nəsibə İsrafilqızının “Abbasqulu bəy Şalinski” poeması “Nurlan“ nəşriyyatında çapdan çıxmışdır.* |
| ***2014-cu il*** | *Yazıçı-publisisti və tədqiqatçı Sərtib İslamoğlunun “Xal düşən ömür...” kitabı nəşr olunub.* |
| ***2019-2022-ci ildə*** | *Fərman Kərimzadənin “Qarlı aşırım” romanı təkrar nəşr olunmuşdur.* |
| | |